**UOT 31.**
**ORCID ID: 0009-0004-6288-358X**
**https://doi.org/10.52094/2221-7584.2025.37.55**

**Lamiyə Süleymanlı Elşən qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti magistrant**
**lamiyesuleymanli19@gmail.com**

# TƏHSİL VƏ İNNOVASİYANIN İŞSİZLİK PROBLEMİNİN HƏLLİNDƏ ROLU

**Xülasə:** Müasir dövrün nəzərəçarpan və mühüm sosial-iqtisadi problemlərindən biri işsizlikdir. İşsizliyin yaranmasının səbəbləri müxtəlifdir və yalnız inkişaf etməkdə olan ölkələrdə deyil, həmçinin iqtisadi cəhətdən inkişaf etmiş, rifah səviyyəsi yüksək olan ölkələrdə də müşahidə olunur. Məqalədə statistik təhlillər nəticəsində işsizliyin səviyyəsi təhlil edilmiş, bu problemin həlli istiqamətində təhsil və innovasiya arasındakı qarşılıqlı əlaqənin əhəmiyyəti, müxtəlif ölkələrin bu sahədə həyata keçirdiyi strategiyalar araşdırılmışdır.

**Açar sözlər:** işsizlik, təhsil, innovasiya, texnologiya, ali təhsil, peşə təhsili

İşsizlik qlobal səviyyədə yaranmış, xüsusilə gənclər arasında daha geniş yayılmış problemdir. Bu problem həm cəmiyyətə, həm də dövlətə sosial-iqtisadi zərər vurur. Buna görə də işsizliyin aradan qaldırılması dünya ölkələrinin qarşısında duran əsas vəzifələrdən biridir.

İşsizliyin yaranmasının səbəbləri fərqlidir. Bu səbəblərə aşağıdakıları nümunə göstərmək mümkündür:

- Strukturda yaranan yeniliklər – Texnologiyanın bir çox sahədə həddindən artıq inkişafı bəzi peşə sahiblərinin işsizliyinə səbəb olur. Əl əməyinə tələbat zaman keçdikcə azalır, avtomatlaşdırma, robotlaşdırma, süni intellekt artıq ön plana çıxaraq əksər sahələrdə insanı əvəz etməyə başlayır.
- Dünyada və ya ölkədə baş verən təbii fəlakət, epidemiya və pandemiya – Təbii fəlakətlər baş verən zaman əhaliyə həm maddi (təsərrüfat sahələri, iş yerləri məhv olur), həm də mənəvi (əhalinin sosial həyatına və psixologiyasına təsir göstərir) ziyan vurur. Mövcud zərərin aradan qaldırılması isə xeyli vaxt tələb edir. 2019-cu ildə baş verən COVID-19 pandemiyası bütün dünyanı sarsıdan və əhalinin bir neçə il normal həyat fəaliyyətinə imkan verməyən bariz

nümunədir. Tətbiq edilən bəzi məhdudiyyətlər nəticəsində bir sıra ölkələrdə işsizlik səviyyəsində artım müşahidə olunmuşdur.

- Mövsümdən asılı olan iş yerləri – Bəzi işçilər mövsümdən asılı olaraq yüksək və aşağı gəlir əldə edir, yaxud yalnız müəyyən fəsillərdə iş yerləri xidmət göstərir. Bunlara bəzi istirahət mərkəzlərini, yazlıq və payızlıq olaraq ayrılan məhsul yığımını, inşaat sektoru daxil ola bilər.

İşsizliyi yaradan əsas səbəblərdən biri – məqalənin əsas tədqiqat mövzusu olan təhsil və xüsusilə də peşə hazırlığının düzgün həyata keçirilməməsindən yaranan sosial səbəbdir. Qeyd etmək lazımdır ki, müəyyən ölkələrin təhsil sistemində bəzi çatışmazlıqlar mövcuddur. Təhsil proqramları bəzi hallarda tələbəni ona gələcək həyatında lazım olan biliklər ilə təmin etmir. Buna səbəb olan amil müasir dövrdə texnologiyanın nüfuz etdiyi sahələrdə işçiyə daha çox tələbat yaransa da, peşə və ali təhsil müəssisələrinin müasir proqramlardan istifadə etməməsi, təhsil və innovasiyanın, texnologiyanın sintezinin kifayət qədər yaxşı təşkil edilməməsidir. Bu da tələbələrə ixtisası dərindən öyrənməyə, texnoloji biliklərə yiyələnməyə imkan vermir. Bunun nəticəsində isə 18-29 yaş aralığında olan gənclər təhsil aldıqları sahə ilə əlaqəsi olmayan işlərdə çalışır və ya işsiz qalır.

Peşə təhsili və praktiki bacarıqların uyğunsuzluğu bir çox hallarda işsizliyə səbəb olur. Dünyanın əksər inkişaf etməkdə olan ölkələrində peşə təhsilinə lazımi qədər əhəmiyyət verilmir, tələbələr daha çox nəzəri biliklərə yiyələnir. Praktiki bacarıqların inkişafına daha az yer verilməsi tələbənin iş mühitinə hazırlanmasında çətinliklər yaradır, çünki bir çox işəgötürən təcrübəsiz insanlarla işləməyin vaxt itkisi olduğunu düşünür və nəticədə əmək bazarında boşluq yaranır. Bəzi ölkələrdə peşə təhsilinin necə inkişaf etdiyinə nəzər salaq:

**Almaniya.** Almaniya peşə təhsilinə xüsusi əhəmiyyət verən Avropa İttifaqı ölkəsi hesab olunur və ömürboyu, eləcə də pulsuz təhsil dövlətin prioritetidir. Dövlətin təhsil siyasətində əsas məqsəd şagird və tələbələrə mümkün qədər dəstəyin göstərilməsi, şagirdyönümlülük prinsipinə əməl olunaraq ixtisaslı kadrların, mütəxəssislərin yetişməsinə çalışmaqdır. Şagirdlər maraq və istəklərinə uyğun peşə fəaliyyətinə hazırlaşmaq üçün müvafiq məktəblərdə təhsil alırlar və bu məktəblər müəssisələr ilə daimi əməkdaşlıq əlaqələrinə malikdir. Məktəblərdə aşağı siniflərdən başlayaraq peşəyönümlü fənlərin bir çoxu tədris edilir. 8-ci sinfin əvvəlində şagirdlər işləmək istədikləri peşə üzrə seçim edirlər, növbəti tədris ilində bu istiqamətdə nəzəri, eləcə də praktiki bacarıqlara yiyələnirlər. Burada gimnaziyanı bitirən şagirdlərin əksər

hissəsi universitetə deyil, peşə təhsilinə yönəlir və Almaniyada bəzi peşə təhsili almış sertifikatlı tələbələr ali məktəbi bitirmiş tələbələrdən praktiki bacarıqlar baxımından daha üstün olur.

**Finlandiya.** Finlandiyada da bizim təhsil sistemimizdə olduğu kimi icbari təhsil 9 illikdir. 9-cu sinfi bitirən şagird 2 istiqaməti seçə bilər – tam orta təhsil, yaxud peşə məktəbi. Peşə məktəbinə qəbul attestat qiymətləndirilməsi ilə təşkil edilir, tibbi istiqaməti seçmək istəyənlər isə xüsusi imtahanlara cəlb olunurlar. Finlandiyada icbari təhsili bitirən şagirdlərin təqribən 40%-i peşə məktəbinə yönəlir (1; 10). Təhsil müddəti ərzində onlar təqaüd, yemək ilə təmin olunur, peşə məktəbini bitirdikdən sonra isə iş zəmanəti verilir. Tələbələr peşə sertifikatını üç halda – peşə məktəbini bitirdiyi, müəssisədə təlim keçdiyi, praktiki imtahandan uğurla keçdiyi halda əldə edə bilər. Peşə məktəbləri tələbələri praktiki bacarıqlar verməyi hədəfləyir və onları real iş mühitinə hazırlayaraq ixtisaslı kadr olmaqları üçün şərait yaradır.

**ABŞ.** ABŞ-də peşə təhsilinə digər ölkələrdən fərqli olaraq, daha az əhəmiyyət verilir, tədris və iş müəssisələri arasında əlaqə zəifdir. Burada peşə təhsilinə malik gənclər əmək bazarı üçün kifayət qədər uyğun namizəd hesab olunmur. ABŞ-nin əksər ştatlarında peşə təhsilinə 2 kateqoriyadan olan insanlar cəlb olunur: yüksək bilik və bacarığı olmadığı üçün işdən çıxarılan insanlar və işə yeni qəbul olmuş işçilər. ABŞ-nin peşə təhsili sisteminə əsasən, tələbələr texniki, tibb, kulinariya, mühəndislik və.s istiqamətdə yönləndirilir. Bu təhsil tələbələrin seçdikləri sahədən asılı olaraq 1 və ya 2 il olur.

**Türkiyə.** Türkiyədə peşə təhsilinə diqqət yetirilsə də, bilik və bacarıqların keyfiyyətinin artırılması istiqamətində hələ də müəyyən çatışmazlıqlar mövcuddur. Hələ 2019-2020-ci illərdə 4581 peşə təhsili müəssisəsi fəaliyyət göstərmişdir. Bu müəssisələr ümumi orta təhsil müəssisələrinin təxminən 32%-ni təşkil edir (5). Peşə məktəblərində gəncləri real iş mühitinə hazırlamaq üçün rəqəmsal bacarıqların inkişafına əhəmiyyət verilir, təhsil proqramları yenidən hazırlanır. Türkiyə Təhsil Nazirliyi əmək bazarı və peşə təhsilinin qarşılıqlı əlaqəsini yaxından müşahidə etmək üçün peşə xəritəsi tərtib edib. Bu xəritədə rayonlar (il və ilçə) üzrə statistik məlumatlar, işçilərin sayı və peşə qrupları, təhsil alan tələbələrin göstəriciləri əyani olaraq verilmişdir.

**Azərbaycan.** Peşə təhsilinin inkişafı istiqamətində Azərbaycanda mühüm addımlar atılır. Azərbaycan Respublikası tərəfindən təsdiq edilən "Strateji Yol Xəritəsi" bu addımlara nümunə ola bilər. Bu sənəd peşə təhsilinin əhəmiyyətini və onun inkişafını əks etdirir. Hər bir halda, peşə təhsilinin istənilən nəticəni verməməyinin əsas səbəbi təhsil və innovasiya əlaqələrinin

düzgün qurulmamasıdır. Ancaq təhsil sisteminin müasir standartlara uyğun qurulması və texnoloji yeniliklərə açıq olması işsizliyin azaldılması üçün ilk addımdır. Azərbaycanın bir çox rayonlarında peşə təhsilinə diqqət ayrılır, xüsusi mərkəzlər fəaliyyət göstərir və 9-cu sinfi bitirən şagirdlər öz istəyi ilə müəyyən peşə istiqamətini seçərək təhsilini davam etdirmək imkanına malikdir.

Yuxarıda qeyd edilən ölkələrdə işsizlik səviyyəsi aşağıdakı cədvəldə göstərilmişdir:

| Ölkələr | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Almaniya | 3.2 | 3.0 | 3.7 | 3.7 | 3.1 | 3.1 |
| Finlandiya | 7.5 | 6.8 | 7.7 | 7.7 | 6.8 | 7.2 |
| ABŞ | 3.9 | 3.7 | 8.1 | 5.4 | 3.6 | 3.6 |
| Türkiyə | 10.9 | 13.7 | 13.2 | 12.0 | 10.5 | 9.4 |
| Azərbaycan | 4.9 | 4.8 | 7.2 | 6.0 | 5.6 | 5.5 |

***Cədvəl. 2018-2023-cü illər ərzində bəzi ölkələrdə işsizlik səviyyəsi (%)***
*Mənbə: UNECE-nin (Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası) rəsmi veb-saytında yerləşdirilmiş məlumat (4)*

Cədvəldən göründüyü kimi, ən aşağı işsizlik səviyyəsi Almaniyada qeydə alınmışdır. 2018-ci ildə göstərici 3.2% olmuş, 2023-cü ildə 3.1%-ə enmişdir. 2019-cu ildə ən aşağı səviyyə 3.0% olmuşdur. İşsizlik daha aşağı və sabit səviyyədə qalıb. Finlandiyada isə vəziyyət bir qədər fərqlidir. Rəqəmlər müəyyən qədər yüksəkdir. Ən yüksək göstərici 2020-2021-ci illərdə 7.7% faiz, ən aşağı isə 2019 və 2022-ci ildə 6.8% olmuşdur. ABŞ-də işsizlik səviyyəsi 2018-ci ildə 3.9% olsa da, 2020-ci ildə 8.1%-ə qədər yüksəlmişdir. Yalnız ABŞ-də deyil, digər ölkələrdə də yüksək faiz (Türkiyə istisna olmaqla) 2020-ci ildə qeydə alınmışdır. Bunun səbəbi həmin il bütün ölkələrdə COVID-19 pandemiyasının yayılmasıdır. Digər ölkələrdən fərqli olaraq, hər il ən yüksək göstərici Türkiyədə müşahidə olunur. Azərbaycanda isə 2018-2023-cü illərdə qeydə alınan ən aşağı səviyyə 4.8% təşkil etmişdir. Sonrakı dövrlərdə işsizlik səviyyəsini stabilləşdirmək mümkün olmuşdur. Buna baxmayaraq, 2019-cu ilə nisbətən 2023-cü il üçün göstərici bir qədər yüksəkdir. Bütün göstəriciləri nəzərə alsaq, Almaniyada dövlətin həyata keçirdiyi təhsil siyasətinin əmək

bazarı ilə uyğunlaşdırılması nəticəsində işsizliyin minimuma endirilməsi mümkün olmuşdur. Bu da onu deməyə əsas verir ki, təhsil proqramlarının əmək bazarına uyğun şəkildə yaradılması və kadrların hazırlığı işsizliyin azalması ilə nəticələnir.

Peşə təhsilindən əlavə, ali təhsilli gənclər də iş ilə təminat zamanı bir sıra çətinliklərlə üzləşirlər. Buna əsas səbəb təhsil proqramlarının mövcud sistemə uyğun gəlməməsi və iş mühitində dövrün tələbatına uyğun yaranan tendensiyalardır. Ali təhsil işsizliyi azalda və artıra bilər. Belə ki, ali təhsilli gənclər müəyyən bilik və bacarıqlar əldə edirlər. Bu onların bacarıqlarına uyğun iş tapmağını asanlaşdırır. Ali təhsilli insanların əmək bazarında vəzifə artımına və maaş yüksəlməsinə digər rəqiblərinə nisbətən daha tez nail ola bilərlər. Bəzi sahələr var ki, onlar ancaq ali təhsilli insanları işə qəbul edir, lakin aydın məsələdir ki, hazırkı dövrdə ali təhsillə bərabər yüksək bilik və bacarıqlara sahib olan insanlar daha çox uğur qazanır.

Bəzən ali təhsil və əmək bazarı arasında uyğunsuzluğun yaranması işsizliyi artıra bilər. Həmin şəxslərin malik olduğu bilik və bacarıqlar əmək bazarının tələblərinə uyğun olmaya bilər. Bu zaman gənclər ixtisasından əlaqəsiz sahələrə yönəlir. Nəticədə bir çox sahədə işçi çatışmazlığı və ya say çoxluğu müşahidə olunur, bu da müvafiq olaraq əmək bazarının inkişaf xüsusiyyətlərinə mənfi təsir göstərir. Məzun sayı ilə boş vakansiyaların sayı arasındakı uyğunsuzluq da işsizlik yarada bilər. Məzunların sayı çox, vakansiyaların sayı az olduqda güclü rəqabət yaranır və daha yüksək keyfiyyətlərə malik şəxslər işlə təmin edilir, digərləri işsiz qalır. Buradan belə nəticəyə gəlmək olur ki, əsas problemlərdən biri təhsilin keyfiyyətinin yüksəldilməsi və şəxsin öz üzərində çalışmasıdır.

İşsizlik problemi necə həll edilə bilər? İşsizlik probleminin həlli özündə bir çox yolları sınaqdan keçirməyə və uğurlu siyasət yerinə yetirməyə imkan versə də, təhsil və innovasiyanın sinxron yanaşması ilə bu problemin aradan qaldırılması vacib məsələlərdəndir. Təhsil və innovasiya bu problemin minimuma endirilməsində başlıca rol oynayan iki əsas vasitədir. Təhsil sistemində innovasiyaların yaranmasının 5 yolu var:

1. Hər bir müəssisəyə uyğun yeni təcrübənin yoxlanılması – Təhsil müəssisələrinin hər birinin özünəməxsus xüsusiyyətləri olduğuna görə tələb və ehtiyacları da müxtəlifdir. Bəzi müəssisələrdə maddi-texniki baza, infrastruktur yaxşı inkişaf etmədiyindən alternativ həll yollarının tətbiqini düşünmək ehtiyacı yaranır. Bunun üçün hər bir müəssisəyə uyğun spesifik təcrübənin yoxlanılması lazımdır. Məsələn, tədris prosesində yeni metodlardan və texnologiyadan

istifadə, idarəetmədə yeniliklər edilə bilər. Bu yanaşma təhsil müəssisələrinin effektivliyini ölçmək və tətbiq olunan yeniliklərin təhsil prosesinə necə təsir etdiyini anlamaq üçün çox əhəmiyyətlidir.

2. Beynəlxalq təcrübələrə əsaslanmaq – Kanada, Norveç, İsveç kimi təhsil sistemi yaxşı inkişaf etmiş ölkələrin təcrübəsindən yararlanmaq təhsilin keyfiyyətinin artması ilə nəticələnir. Bu ölkələrin istifadə etdiyi yanaşmaların milli təhsil sisteminə uyğunlaşdırılması XXI əsr bacarıqlarının inkişafına təkan verə və təhsilimizi dünya təhsil standartları səviyyəsinə yüksəldə bilər.

3. Elmi-tədqiqatların işlənməsi – Elmi-tədqiqatlar təhsildə yeniliklərin əsas hissəsidir. Xüsusilə məktəb dövründən uşaqlarda tədqiqat aparmaq bacarığını inkişaf etdirmək lazımdır. Texnoloji yeniliklərdən istifadə şagird və tələbələr üçün elmi araşdırmalar həyata keçirməyi daha maraqlı prosesə çevirir.

4. Eksperiment keçirilməsi – Təhsil sistemində istifadə olunan hər bir yenilik üzərində eksperiment aparılır. Belə ki, tətbiq olunan metod şagirdlərə və ya təhsil sisteminin xüsusiyyətlərinə uyğun gəlməyə bilər. Bunun üçün əvvəlcə kiçik siniflər üzərində yenilik tətbiq olunur və uğurlu olduğu təqdirdə əhatə dairəsi genişləndirilir.

5. “Sınaq və səhv” yolu – Təhsil sahəsində tətbiq olunan bu metod ilkin olaraq müəyyən edilmiş yanaşmaların tətbiqi zamanı yaranan səhvlərin aradan qaldırılması və yeni istiqamətlərin uyğunlaşdırılmasını tələb edir. Bu cür yanaşma innovasiyanın daha dinamik və yaradıcı şəkildə inkişafına təkan verir.

İstər peşə, istərsə də ali təhsil sistemi ilə əlaqəli innovativ yanaşmalar irəli sürərək əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrlar yetişdirmək mümkündür. Bunun üçün aşağıdakı müvafiq tədbirlər həyata keçirilə bilər:

1) Təhsil müəssisələrinin dövlət və özəl sektorlar ilə birgə əməkdaşlığı – Bu əməkdaşlıq əsasən innovasiya dəstəyini nəzərdə tutur. Dövlət və özəl müəssisələr məktəb və universitetlərdə tədqiqat və inkişaf yönümlü layihələri dəstəkləmək məqsədi ilə sərmayə qoya bilər. Özəl müəssisələrin maliyyələşdirdiyi kimya, fizika laboratoriyaları, texnoloji avadanlıqlar ilə təminat təhsilalanların bilik və bacarıq əldə etməyinə geniş şərait yarada bilər.

2) Peşə təhsil mərkəzlərinin yaradılması – Belə mərkəzlər Azərbaycanda da fəaliyyət göstərir və əsas məqsəd əmək bazarının dəyişən tendensiyalarına uyğunlaşa bilən yüksək bacarıqlara malik mütəxəssislər hazırlamaqdır. Mərkəzlərdə yeni texnologiyalar ilə işləməyin yolları öyrədilir. Bəzi hallarda xarici ölkələrdən xüsusi təlimçilər dəvət olunur və dünya standartları əsasında texnologiyalardan istifadə olunan peşə hazırlıq kursu keçirilir. Lakin hazırda bu mərkəzlərin sayı kifayət qədər deyil. Onların sayının çoxaldılması üçün dövlət

tərəfindən ayrılan maliyyə vəsaiti artırılmalı və daha çox ərazilərdə yaradılmalıdır. Eyni zamanda həmin mərkəzlərdə tədris edilən ixtisasların əmək bazarına uyğunlaşdırılmalı və tədris prosesində dövrün tələblərinə uyğun yeni texnologiyalardan istifadə edilməlidir.

3) Ömürboyu təhsil – Davamlı təhsil işsizlik probleminin həllində geniş şəkildə istifadə edilən yanaşmadır. Daim yenilənən texnologiya insanların artıq yeni bilik və bacarıqlara yiyələnməsini tələb edir. Ömürboyu təhsilin verilməsi xüsusi dövlət və ya özəl sektorun təklif etdiyi kurs və onlayn platformalar sayəsində baş verir. Ən geniş yayılmış platformalara “Udemy” və “Coursera” aiddir. Bu sahədə milli platformaların yaradılması, habelə ömürboyu təhsilin təmin edilməsi ilə bağlı layihələrin təşkili üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ömürboyu təhsil vasitəsilə müəyyən səbəblərə görə əmək bazarından kənarda qalmış şəxs üçün yeni imkanlar təqdim edilir.

4) Dövlət qurumlarının birgə təşəbbüsü – Azərbaycanda Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən STEAM layihəsi innovativ yanaşmanın tətbiq edildiyi ən uğurlu metodlardan biridir. Bu layihə əsasında ümumtəhsil müəssisələrində tədris bir sıra modullar üzrə kurikuluma uyğun şəkildə həyata keçirilir. Bunlara “Pilotsuz uçuş aparatları (təhsil dronları)”, “Microbitlə proqramlaşdırma”, “3D çap”, “Elektrik mühəndisliyi”, “Nanotexnologiya”, “Biotexnologiya”, “Gen mühəndisliyi”, “Sahibkarlıq”, “CNC lazer kəsiciləri”, “Robototexnika” daxildir (2). Şagirdlərdə XXI əsr kompetensiyalarını inkişaf etdirmək, onları real həyata hazırlamaq layihədə əhəmiyyət verilən məsələlərdir. Bu isə ancaq İKT vasitələrindən istifadənin incəliklərini öyrənmək ilə mümkündür. Bu yanaşmanı daha çox təhsil müəssisəsində tətbiq etməklə yanaşı, Təhsil Nazirliyi və Dövlət Məşğulluq Agentliyinin birgə təşəbbüsü ilə İKT və STEAM layihəsinin əsasını təşkil edən sahələrdə təcrübə proqramlarının, təlimlərin keçirilməsi faydalıdır. Bu, gənclərin və işsizlərin yeni texnologiya təcrübəsini qazanmasına və əmək bazarına daha asan şəkildə daxil olmasına təkan vercək.

5) Startapların təşkili – Startapların həyata keçirilməsi kiçik və orta sahibkarlara dəstək məqsədi daşıyır və işçi qüvvəsi üçün də yeni imkanlar yaradır. Xüsusi diqqət yetirilməsə də, startapların təşkil edilməsi işsizlik probleminin həlli istiqamətində ən mühüm addımlardan biridir. Startaplar vasitəsilə texnologiya, satış, reklam və s. kimi sahələrdə yeni vakansiyalar yaradılır, nəticədə bir çox insan müraciət edə bilir. Hətta bəzi startaplar sadəcə işsizliyin azaldılması məqsədilə yaradılıb. Məsələn, “Fiverr” və “Upwork” kimi

xarici layihələr insanların işlə təmin edilməsi üçün nəzərdə tutulub. Onlara qoşulan frilanserlər (sərbəst işçilər) öz işlərini təqdim edə, habelə işəgötürənlər isə onları dəyərləndirə bilər. Bu növ layihələr yüksək riskə malik olsa da, işsizlikdən əziyyət çəkən insanların təcrübə əldə etməsi və əmək bazarının tələblərinə cavab verən yeni bilik və bacarıqlara sahib olmasına kömək edir. Təhsil ilə bağlı startapların beynəlxalq standartlara uyğunlaşdırmaqla dünya miqyasında tanınan sertifikatlar təqdim etmək daha effektivdir. Başqa sözlə, yerli startap layihələri beynəlxalq sertifikatlaşdırmadan istifadə edərsə, gənclərin əmək bazarında rəqabət qabiliyyəti artacaq, həmçinin onlar üçün daha geniş iş imkanları əlçatan olacaq.

İşsizlik bütün dünyanın, o cümlədən ölkəmizin əsas diqqət mərkəzində olan vacib problemlərdən biridir. Problemi təhsil və innovasiyanın qarşılıqlı əlaqəsi ilə aradan qaldırmaq ən optimal həll yoludur. Bunun üçün dövlət dəstəyi, özəl müəssisələrlə əməkdaşlıq, fərqli layihələrin və ömürboyu təhsilin inkişafına xüsusi nəzarət edilməlidir.

**Ədəbiyyat siyahısı:**

*Azərbaycan dilində*

1. Camalov.R., Mirzəyeva.G. Ən yüksək təhsili orta təhsil səviyyəsində olan işçi qüvvəsinin nisbəti (15+) təhlilinin aparılması və təkliflərin hazırlanması. Bakı: 2023, 15 səh.

*İnternet resursları*

2. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. “STEAM” layihəsi. – URL: https://edu.gov.az/az/programmes/steam-layihesi
3. İnnovasiyaların idarə edilməsi. – URL: https://www.anl.az/down/meqale/az_muellimi/2014/yanvar/350556.htm
4. UNECE unemployment rate. – URL: https://w3.unece.org/PXWeb/en/Table?IndicatorCode=43
5. Can Vocational Education and Training Centres reduce Turkey’s Not in Education, Employment, or Training rate? – URL: https://tvet-online.asia/21/can-vocational-education-and-training-centres-reduce-turkeys-not-in-education-employment-or-training-rate/

**Lamiya Elshan qizi Suleymanli**

## THE ROLE OF EDUCATION AND INNOVATION IN SOLVING THE PROBLEM OF UNEMPLOYMENT

**Summary:** One of the noticeable and important socio-economic problems of the modern era is unemployment. The causes of unemployment are diverse and are observed not only in developing countries, but also in economically developed countries with a high level of welfare. In the article, the level of unemployment was analyzed according to the statistical analysis, the importance of the interaction between education and innovation in the direction of solving this problem, and the strategies implemented by different countries were investigated.

***Key words:*** unemployment, education, innovation, technology, higher education, vocational education

**Ламия Эльшан кызы Сулейманлы**

## РОЛЬ ОБРАЗОВАНИЯ И ИННОВАЦИЙ В РЕШЕНИИ ПРОБЛЕМЫ БЕЗРАБОТИЦЫ

**Резюме:** Одной из заметных и важных социально-экономических проблем современности является безработица. Причины безработицы разнообразны и наблюдаются не только в развивающихся странах, но и в экономически развитых странах с высоким уровнем благосостояния. В статье проанализирован уровень безработицы по данным статистического анализа, исследована важность взаимодействия образования и инноваций в направлении решения этой проблемы, а также стратегии, реализуемые разными странами.

***Ключевые слова:*** безработица, образование, инновации, технологии, высшее образование, профессиональное образование